# İÇİNDƏKİLƏR

**GİRİŞ ..........................................................................................10**

**I FƏSİL**

**AZƏRBAYCAN ƏDƏBİYYATININ YENİLƏŞMƏ MƏRHƏLƏSİ (1960–1970-ci illər)**

**BİRİNCİ BÖLÜM**

**1. İctimai həyat və ədəbi proses ..........................................................14**

60–70-ci illər ictimai həyatı və ədəbi prosesi yeni mərhələ kimi. Repressiya olunmuşların yaradıcılığının ədəbi dövriyyəyə daxil olması. "Xruşşov baharı"nın ictimai və ədəbi prosesə təsiri. Ədəbi prosesdə canlanma və dünya ədəbiyyatına inteqrasiya; Kafka yaradıcılığı ilə tanışlıq. Altmışıncıların elan olunmamış ədəbi platforması. Yeni ədəbi nəsil və yeni bədii düşüncə stereotiplərinin formalaşması.

**1.1. NƏSR ..........................................................................................24**

**1.1.1. Altmışıncılar nəsrinin yaradıcılıq axtarışları ..................................24**

Yeni mərhələdə nəsrin qan dəyişimini şərtləndirən amillər. Nəsrin çağdaş həyata daha artıq nüfuz etməsi. M.Hüseyn, M.İbrahimov, S.Vəliyev, İ.Əfəndiyev nəsrində yeni meyillər. M.Hüseynin "Yeraltı çaylar dənizə axır" romanında cəmiyyət hadisələrinə nüfuzetmə. İ.Əfəndiyev nəsrində lirik-psixoloji üslubun formalaşması: "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost". İ.Hüseynov nəsrində insan amilinə və psixoloji təsvirə üstünlük verilməsi. İ.Şıxlının "Dəli Kür" romanında Cahandar ağa obrazı. Altmışıncılar erasının başlanması. Bədii nəsrdə tarix və müasirlik.

**1.1.2. Bədii nəsrdə tarixi hadisələr və şəxsiyyətlərin təsviri ......................40**

Tarixi mövzu Azərbaycan bədii nəsrinin əsas inkişaf istiqamətlərindən biri kimi. Tarixi roman janrının yaradılmasında ən məhsuldar və yeni mərhələ kimi. İ.Hüseynovun "Məhşər", Ç.Hüseynovun "Fətəli fəthi", Ə.Cəfərzadənin "Vətənə qayıt", "Aləmdə səsim var mənim", "Yad et məni", "Bakı–1501", F.Kərimzadənin "Xudafərin körpüsü", Ə.Nicatın "Qızılbaşlar", "Nəğməyə dönmüş illər", M.İsmayılovun "Xaqani" və s. tarixi əsərlərin bədii interpretasiyası.

**İsa Hüseynov**......................................................................................45
**İsmayıl Şıxlı**.......................................................................................57

## İKİNCİ BÖLÜM

**1.2. POEZİYA**........................................................................................73
**1.2.1. Poeziyanın inkişaf yolları və mərhələləri**..........................................73
Müharibədən sonra poeziyanın mövzu və problematika dəyişimi. Süjetli, ictimai problematikadan (Ə.Əlibəyli, Ə.Cəmil, A.Babayev və b.) fərdi lirikaya keçid. Poeziyaya yeni qüvvələrin gəlişi ilə palitrasının dəyişməsi, yeni poetik üslubların formalaşması (Ə.Kərim, N.Həsənzadə, C.Novruz, M.Araz, M.Yaqub, T.Bayram, A.Abdullazadə, F.Sadıq, V.Səmədoğlu, R.Rövşən, Ə.Salahzadə, İ.İsmayılzadə və b.). Poeziyada Cənub mövzusunun aktuallaşması. R.Rzanın "Rənglər" silsiləsi. Ə.Kərimin "Babəkin qolları", "Qaytar ana borcunu" şeirləri.

**1.2.2. Assosiativ poeziya və onun imkanları** ..............................................94
Poeziyada şairin yaradıcılıq fərdiyyətinin önə çıxması, ümumi mövzuları şəxsi duyğular, pafosu fəlsəfi dərinliyin əvəz etməsi. Humanizm, vətəndaşlıq, beynəlmiləlçilik kimi meyarlar çağdaş poeziyadan çəkilməsi. Poeziyanın təsvir obyektində şairi narahat edən insan taleyi və duyğuların yer tutması. Ritorik nikbinlik, şüarçılıq, bəşəri və milli əxlaq normalarının təsvirinin bir qədər geri çəkilməsi. Ə.Salahzadə, İ.İsmayılzadə, Vaqif Vəkilov (Səmədoğlu), R.Rövşən, V.Cəbrayılzadə və b. şeirlərində assosiativlik.

**Əli Kərim** .........................................................................................107
**Bəxtiyar Vahabzadə** ..........................................................................117
**Hüseyn Arif**.......................................................................................131
**Nəbi Xəzri** .........................................................................................143

## ÜÇÜNCÜ BÖLÜM

**1.3. DRAMATURGİYA** .............................................................................154
**1.3.1. Dramaturgiyada konflikt və xarakter problemi** ...............................154
Dramaturgiyanın "konfliktsizlik nəzəriyyəsi"ndən yaxa qurtararaq yeni mərhələyə daxil olması. Həyatın və cəmiyyətin özündə gedən proseslərin təsviri. Dramaturgiyanın teatrla bağlılığı və yeni keyfiyyətlərlə zənginləşməsi. Bu zənginliyin forma, janr müxtəlifliyində, yeni obraz və konfliktin keyfiyyətcə dəyişməsində özünü göstərməsi. S.Rəhmanın "Əliqulu evlənir" (1961), "Yalan" (1966). "Küləklər" (1969), M.İbrahimovun

"Kəndçi qızı" (1963), "Yaxşı adam" (1964), Ş.Qurbanovun "Əcəb isə düşdük", "Özümüz bilərik", A.Məmmədovun "Kişilər", "Həmyerlilər", S.Dağlının "Mənziliniz mübarək" (1966) əsərlərində satirik ifşa, komik bədii ifadə üsulunun rəngarəngliyi.

**1.3.2. Dramaturgiyada sosial psixologizmin təzahürləri ........................... 166**

Psixologizm, hadisələrin mahiyyətinə enmə, yeni teatr estetikasının əsas faktorlarından biri kimi. Cəmiyyətdə fərdiyyət, tənhalıq, təklik problemi. Dramaturgiyada intellektuallığın, müasirliyin və yeni üslubi təmayüllərin yaranması. M.Hüseyn, Ə.Məmmədxanlı, İ.Əfəndiyev, İ.Qasımov, Ş.Qurbanov, B.Vahabzadə, N.Xəzri, Anar, R.İbrahimbəyov, M.İbrahimbəyov və b. dramaturqların əsərlərinin ideya – bədii xüsusiyyətləri.

**İlyas Əfəndiyev ........................................................................ 175**

## II FƏSİL

### AZƏRBAYCAN ƏDƏBİYYATININ MİLLİ ÖZÜNÜDƏRK MƏRHƏLƏSİ (1980-ci illər və 90-cı illərin ortaları)

**2.1. İctmai həyat və ədəbi proses. ................................................ 195**

80-ci illər ədəbi prosesinin zənginliyi, mürəkkəbliyi və ziddiyyətliliyi. İctimai-siyasi proseslərin ədəbi prosesə təzyiqi və təsiri. Ədəbiyyatın janr-forma, obrazlar baxımından dəyişməsi və yeniləşməsi. V.Folknerin, Q.Q.Markesin əsərlərinin tərcüməsinin yeni mərhələdə aparıcı ol oynaması. Çingiz Aytmatov, Nodar Dumbadze, Valentin Rasputin, Vasili Şukşin, Vasili Belovun yaradıcılığının milli bədii düşüncənin inkişafına müəyyən təkan verməsi. Ədəbiyyatın dəyərləndirilməsində yeni meyarların önə çıxması. Bədii mətnin dəyərləndirilməsində ideolojidən daha çox bədii prinsiplərə üstünlük verilməsi. Asif Əfəndiyevin, Yaşar Qarayevin təhlil və tənqidlərində də yenilikçilik. İ.Hüseynovun əvvəlki imzasından imtinası və Muğanna adı ilə tanınması.

### BİRİNCİ BÖLÜM

**2.1.1. NƏSR.............................................................................. 202**

**2.1.2. Bədii düşüncə və inikasda yeniləşmə prosesləri ................................ 202**

80-ci illər bədii nəsri özünəməxsus inkişaf yolu. İ.Əfəndiyev, İ.Şıxlı, Ç.Hüseynov, Anar, Ə.Əylisli, İ.Məlikzadə, S.Əhmədov, Elçin, S.Azəri,

V.Babanlı, M.Süleymanlının əsərlərində yeni nəsr texnologiyası. Ç.Hüseynovun "Məhəmməd, Məmməd, Məmiş", Y.Səmədoğlunun "Qətl günü", M.Süleymanlının "Köç", Elçinin "Ölüm hökmü", Ə.Cəfərzadənin "Bakı—1501", S.Azərinin "Dalanda" və s. romanlarının ədəbi prosesə zənginlik gətirməsi. Tarixi düşüncənin bədii vüsətinin miqyasının böyüməsi və həqiqətə yaxınlaşması.

**Əzizə Cəfərzadə** ........................................ **217**
**Əkrəm Əylisli** ........................................ **238**
**Anar** ........................................ **259**
**Sabir Əhmədli** ........................................ **281**
**Yusif Səmədoğlu** ........................................ **295**
**İsi Məlikzadə** ........................................ **311**
**Elçin** ........................................ **325**
**Sabir Azəri** ........................................ **345**
**Mövlud Süleymanlı** ........................................ **357**

## İKİNCİ BÖLÜM

**2.2.1. POEZİYA** ........................................ **372**
**2.2.2. Poeziyada fəlsəfi fikrin və intellektin formalaşması** ........................................ **372**
Dəyişən və yeniləşən poeziyaya yeni nəfəs, yeni üslubun gəlməsi. R.Rza və Ə.Kərimli ilə başlayan fikir poeziyanın, B.Vahabzadə, M.Araz şeirlərilə fəlsəfi axara düşməsi. Poeziyaya yeni gələn qüvvələrin yaradıcılıq fərdiyyətinin fərqli poetik üslubların formalaşmasına imkan verməsi. Poeziyada yeniləşmə, modernləşmə meyillərinin yalnız üslubda və poetik fərdiyyətdə deyil, həm də fikirdə, misraların fəlsəfi dərinliyində, orijinal bədii təsvir və ifadə vasitələrində özünü göstərməsi. Poeziyanın getdikcə ideolojidən, ictimaidən qurtularaq saf sənət, poetik ruh halına gəlməsi. Dünya və cəmiyyət hadisələrinin yeni rakursdan təsvir edilməsi. Şairin (lirik Mənin!) dünyaya və cəmiyyətə qarşı sanki üsyan etməsi, özünün də içində olduğu axına qarşı dayanması.

**Musa Yaqub** ........................................ **386**
**Arif Abdullazadə** ........................................ **399**
**Xəlil Rza Ulutürk** ........................................ **410**
**Nəriman Həsənzadə** ........................................ **421**
**İsa İsmayılzadə** ........................................ **430**
**Ramiz Rövşən** ........................................ **439**

**ÜÇÜNCÜ BÖLÜM**

**2.3.1. DRAMATURGİYA ...................................................................... 455**

Dramaturgiyada yeni ideya və bədii axtarışlar, müasirlik problemi mənəvi-əxlaqi problemlərin təsviri. İnsan və cəmiyyət, cəmiyyətdə mənəvi saflıq və s. problemlər getdikcə dramaturgiyanın da konfliktinə gətirilir, insanın cəmiyyət qarşısında mənəvi borcu məsələsi. Lirik-psixoloji dramaturgiyanın zənginləşməsi. İ.Əfəndiyevin "Büllur sarayda", "Qəribə oğlan", B.Vahabzadənin "Vicdan", Anarın "Adamın adamı", "Şəhərin yay günləri", "Səhra yuxuları", A.Abdullazadənin "Evlərin axşamları", M.İbrahimbəyovun "Kaliforniyada dəfn mərasimi" və s. əsərləri. Tarix və müasirliyə yeni baxış. İ.Əfəndiyevin "Hökmdar və qızı", "Xurşidbanu Natəvan", B.Vahabzadənin "Dar ağacı", N.Həsənzadənin "Atabəylər", N.Xəzrinin "Mirzə Şəfi Vazeh" və s. əsərlərində tarixiliklə müasirliyin vəhdəti.

# III FƏSİL

## AZƏRBAYCAN ƏDƏBİYYATININ MÜSTƏQİLLİK MƏRHƏLƏSİ
## (1990-cı ilin ortalarından günümüzədək)

**3.1. İctimai həyat və ədəbi proses ............................................................ 470**

80-ci illərin sonlarından başlayan milli mücadilənin istiqlalla nəticələnməsi. Bir əsrdə ikinci dəfə müstəqillik. Qarabağ müharibəsi kontekstində ədəbi prosesin yeni bir məcraya yönəlməsi. Məhv olan sosializm sisteminin yerinə kapitalizm və demokratizmin gəlməsi. Siyasi-ictimai proseslərin önə çıxması. Bədii düşüncənin bir müddət geri çəkilməsi. Sosrealizm bədii yaradıcılıq metodunun müxtəlif "izm"lərlə əvəz olunması. Modernizm, avanqardizm, postmodernizmin təzahürü. Yeni ədəbi qrupların yaranması və formalaşması. Yazıçıların növbəti qurultayları. Ədəbiyyatda 20 Yanvar, Qarabağ və müharibə mövzularının təsviri.

**BİRİNCİ BÖLÜM**

**3.1. NƏSR ..................................................................................................... 477**
**3.1.1. Bədii nəsrdə janr, üslub müxtəlifliyi və zənginliyi ............................ 477**

Bədii nəsr janr, üslub və forma baxımından yeni bir inkişaf yolu keçdi. Roman janrının ən populyar janr olması. Ədəbi prosesdə yeni romançılar nəslinin formalaşması: Kamal Abdulla, Nəriman Əbdülrəhmanlı, Ağarəhim, Əlabbas Bağırov, Eyvaz Əlləzoğlu, Etimad Başkeçid, Firuz Mustafa, Rəşad Məcid, Azad Qaradərəli, Vaqif Sultanlı, Pərviz Cəbrayıl, Elçin Hüseynbəyli, Zümrüd

Yağmur, Məqsəd Nur, Həmid Herisçi, Şərif Ağayar, Seymur Baycan, Orxan Fikrətoğlu, İlqar Fəhmi, Aslan Quliyev, və b. yeni nəsrin inşasında yaxından iştirakı.

**3.1.2. Müxtəlif "izm"lərdən görünən nəsr ................................................ 488**

Sosrealizmdə sonra nəsrdə yeni "izm"lərin yaranması və formalaşması: modernizm, postmodernizm, magik realizm və s. Kamal Abdulla, Nəriman Əbdülrəhmanlı, Ağarəhim, Əlabbas Bağırov, Eyvaz Əlləzoğlu, Etimad Başkeçid, Firuz Mustafa, Rəşad Məcid, Azad Qaradərəli, Vaqif Sultanlı, Pərviz Cəbrayıl, Elçin Hüseynbəyli, Zümrüd Yağmur, Məqsəd Nur, Həmid Herisçi, Şərif Ağayar, Seymur Baycan, Orxan Fikrətoğlu, İlqar Fəhmi, Aslan Quliyev, və b. yeni nəsrin inşasında yaxından iştirakı.

**Ağarəhim................................................................................................ 494**
**Afaq Məsud............................................................................................ 517**
**Kamal Abdulla........................................................................................ 534**
**Nəriman Əbdülrəhmanlı ........................................................................ 548**

## İKİNCİ BÖLÜM

**3.2.1. POEZİYA........................................................................................ 569**

Azərbaycan poeziyasının dünya ədəbiyyatına inteqrasiya proseslərinin çoxalması aydın görünür. Müstəqillik havasından gələn azad duyğular, müxtəlif cərəyanlar və "izm"lər, təsəvvüfi düşüncələr. Şeirlərdə sufi-təriqət görüşlərinin təsiri, simvolizm, modernizm, avanqardizm, postmodernizm meyillərinin təzahürü. Milli ruhdan və milli formadan, hətta sərbəst şeirin estetikasından belə uzaqda yeni poetik sistem qurmağa cəhd. Eksperiment xarakterli olan bu cəhdlərin getdikcə milli kökdən uzaqlaşmağa gətirib çıxarması. Milli ruhu, kökü (eləcə də formanı) inkar. Postmodern estetikaya ehkam kimi baxmaq ədəbi düşüncənin yeniliyini şərtləndirən amillər kimi. Poeziyanın semantik strukturunda assonans, təkrarlar, təkrirlər və s. əsas yer tutması. Poetik vasitələrin şeirdə işlənmə məqamları və müxtəlifliyi, poetik semantikanın zənginliyi, emosional təsir gücünün artması. Bədii təsvir və ifadə vasitələrinin yeni estetik funksiyaya malik olması.

**Vaqif Səmədoğlu.................................................................................... 584**
**Zəlimxan Yaqub..................................................................................... 598**

**ÜÇÜNCÜ BÖLÜM**

**3.1. DRAMATURGİYA....................................................................................611**
Xalqın siyasi mübarizə səhnəsinə çevrilən Azadlıq meydanının canlı teatr tamaşasını xatırlatması və klassik teatr səhnəsi üçün əsərlərə o qədər də ehtiyac qalmaması. Dramaturgiyanın yeni bir ədəbi-estetik mərhələyə daxil olması. Bu mərhələdə, həyata, gerçəkliyə, hadisələrə, bütövlükdə cəmiyyətə sosialist baxışının deyil, müstəqil münasibətin əsas olması. Dramaturgiyada yeni, mütəhərrik yaradıcılıq atmosferinin hökm sürməsi. Bu mərhələnin keçid dövrü ilə xarakterizə olunması. Keçid dövrü anomaliyalarının dramaturigayaya öz təsirini göstərməsi. Mövzu və problematika məhdudluğu, yeni bir dramaturji konsepsiyanın formalaşması, siyasi publisistikaçılıq, patetika və s. kimi keyfiyyətlər dramaturgiyanın əsas xüsusiyyətinə çevrilməsi. Dramaturgiyanın dünya dramaturgiyasına daha çox inteqrasiya etməsi, absurdizm, modernizm və postmodernizm elementləri ilə zənginləşməsi.

**Firuz Mustafa ....................................................................................625**

**IV FƏSİL**

**CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI**

XX yüzilin ikinci yarısı Cənubi Azərbaycan ədəbiyyatında bədii düşüncənin ideya, məzmun, forma baxımından zənginliyi. M.Şəhriyarın "Heydərbabaya salam" poemasını yazmasından və Şimaldakı şairlərlə poetik məktublaşmasından sonra inteqrasiya prosesinin daha da sürətlənməsi. Cənubda Əmir Xosrov Darai, Məmmədəli Məhzun, Həbib Sahir, Mir Mehdi Çavuşi, Haşım Tərlan, Yəhya Şeyda, Sönməz (Kərim Məşrutəçi), Səhənd, Əlirza Nabdil Oxtay, Hüseyn Düzgün və b. yaradıcılığında zamanın ictimai prosesləri və şimaldakı soydaşlarının yaradıcılığı ilə ideya-mənəvi, sosial cəhətdən səsləşməsi. Səhəndin "Balaca qara balıq" əsərində cəmiyyət hadisələrinin təsviri. Çağdaş şairlərdən Nasir Merqati, Əziz Salami, Rəsul Yunan, İsmayıl Ülkər, Nigar Xiyavi, Kiyan Xiyav, Nadir İlahi, Huşəng Cəfəri, Hadi Qaraçay, Heydər Bəyat, Nadir Əzhəri, Vali Gözətən, Bəhruz Sədiq, Süleymanoğlu, Məsud İslami, Səid Muğanlı və b. şeirlərində modern düşüncə və forma müxtəlifliyi.

**Ədəbiyyat ....................................................................................656**

# GİRİŞ

Bir minillik, eyni zamanda yüzillik başa çatdı, yeni minillik və yüzillik başladı. Lakin bir minilliyin və yüzilliyin sona çatması və yenisinin başlanması ədəbi prosesə birbaşa təsir göstərmir. Ədəbi prosesin özünəməxsusluğu və inkişaf mərhələlərində bu cür tarixlər ancaq simvolik xarakter daşıyır. Bu mənada təqdim etdiyimiz dərslik ötən yüzilliyin 60-cı illərindən başlayaraq bu günümüzədək yaranan ədəbi prosesi və inkişafı özündə ehtiva edir. Lakin bu dövr özü də bir çox mərhələlərə bölünür. Bu mərhələlər həm forma, həm janr, həm də məzmun və ideya cəhətdən bir-birindən əsaslı şəkildə fərqlənir. Bu dövrü zənginləşdirən amil yalnız ədəbiyyatın ideya cəhətdən dəyişməsi və yeniləşməsində deyil, eləcə də, üslub cəhətdən zənginləşməsində, onun ideya, forma, bədii təsvir və ifadə vasitələri baxımından dəyişməsindədir. Təkcə bunu demək lazımdır ki, 60-cı illərdən başlayan və Altmışıncılar yaradıcılığı ilə dəyişən təkcə nəsr olmayıb, poeziya, dramaturgiya da yeni inkişaf yolu keçib, ədəbiyyata yeni qüvvələr gəlib. Sonrakı dövrdə də (yəni 70–80-ci illərdə) Altmışıncıların sıralarına yeniləri gəlib. Onların ədəbi estetikası ilə əvvəlkilərin estetikası arasında da xeyli dəyişikliklər var. Onlar belə demək mümkünsə ilk Altmışıncıların yaradıcılığına bu və ya digər dərəcədə təsir göstərib. Elə Altmışıncıların yaradıcılığının ilk dövrü ilə sonrakı dövrü arasındakı ədəbi, estetik düşüncədə də müəyyən fərqliliklər var. Hər hansı bir ədəbi hadisəyə, cərəyan və hərəkata zaman keçdikcə fərqli baxışları da buraya əlavə etsək, dövrün ədəbiyyatına yenidən baxmaq, təhlil etmək lazım gəlir. İndi 60-cı illər və Altmışıncılar yaradıcılığına da yeni kontekstdən baxmaq, təhlil etmək lazım gəlir. Bu onillik ədəbiyyatın inkişafını və zənginləşməsini təkcə Altmışıncılar yaradıcılığı ilə bağlamaq

düzgün olmazdı. O zaman İlyas Əfəndiyev, İsmayıl Şıxlı, eləcə də Altmışıncılara aid edilməyən digər yazarların yaradıcılığına doğru qiymət verə bilmərik. Altmışıncılara aid edilən yazarların yaradıcılığı da üslub baxımından bir-birinin təkrarı deyil. Sabir Əhmədli, Çingiz Hüseynov, Anar, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Elçin, İsi Məlikzadə, Sabir Azəri, Vidadi Babanlı yaradıcılığını fərqləndirən amillər çoxdur. 70-ci illərdə bədii nəsrə gələn Mövlud Süleymanlı, Ramiz Rövşən bədii nəsrində üzə çıxan yeni xüsusiyyətlər onun davamlılığını təmin etdi. Afaq Məsud, Kamal Abdulla, Əlabbas, Nəriman Əbdülrəhmanlı, Ağarəhim, Aslan Quliyev, Azad Qaradərəli, Şərif Ağayar, Sabir Rüstəmxanlı, Əli Əmirli, Eyvaz Əlləzoğlu, İlqar Fəhmi, Saday Budaqlı, Mübariz Örən, Vüsal Nuru, Hədiyyə Şəfaqət və b. yazıçıların fərdi üslublarını formalaşdırması və hekayə, povest və romanlarında qoyduqları problemlər cəmiyyət hadisələrini əhatə edir.

Poeziyada da yeni üslub və bədii düşüncənin varlığını görmək mümkündür. Yarıməsrlik bir yaradıcılıq yolu keçən S.Rüstəm, R.Rza, M.Rahim, O.Sarıvəlli yaradıcılıqlarının yeni mərhələsinə daxil oldu. Poeziyaya gələn yeni ədəbi qüvvələr onu forma və məzmunca tamamilə dəyişdi. Bəxtiyar Vahabzadə, Hüseyn Hüseynzadə (Arif), Nəbi Xəzri, İslam Səfərli, Sərdar Əsəd, Məmməd Araz, Əli Kərim, Nəriman Həsənzadə, Əliağa Kürçaylı kimi şairlərin yaradıcılığı ilə poeziya poetik üslub dəyişiminə doğru yol aldı. Fikrət Sadıq, Arif Abdullazadə, Fikrət Qoca, Vaqif Səmədoğlu, Ramiz Rövşən, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Məmməd İsmayıl, Məmməd Aslan, Nüsrət Kəsəmənli, Musa Yaqub, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, Vaqif Cəbrayılzadə, Vaqif Bəhmənli poeziyası yeni poetik düşüncə orbitini bir qədər də zənginləşdirdi. Vaqif Səmədoğlu, Adil Mirseyid, Rəşad Məcid, Rafiq Hümmət, Yusif Nəğməkar, Əlisəmid Kür, Murad Köhnəqala, Salam Sarvan, Həmid Herisçi, Qəşəm Nəcəfzadə, Nurafiz, Dəyanət Osmanlı, Aqşin Yenisey, Rəşid Faxralı, Əjdər Ol, Səlim Babullaoğlu, Şəhriyar Del Gerani, Fərid Hüseyn, Səxavət Sahil, Ehtiram İlham və b. onlarla imzalar yeni dövr poeziyasının nümayəndələri kimi poeziyanı bədii təsvir, ifadə vasitələri, üslub və lirik qəhrəman cəhətdən zənginləşdirmişlər.